# Tərtərdə bayram sevinci yaşandı

**Tərtər Rayon İcra Hakimiyyətinin, Qarabağ Regional Mədəniyyət İdarəsi Tərtər nümayəndəliyinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbir Ulu Öndər Heydər Əliyevin abidəsini və Şəhidlər abidə kompleksinin ziyarəti ilə başlamışdır.**



Tədbir iştirakçıları Tarix-diyarşünaslıq muzeyinin nümayiş etdirdiyi qədim əşyalara, "Bahar" sərgisinə, şagirdlərin, Uşaq Gənclər İnkişaf Mərkəzinin Novruza həsr olunan rəsm və əl işlərindən ibarət sərgisinə baxdıqdan sonra rayon idmançılarının güləş, boks, kikboksinq üzrə nümunəvi çıxışlarını, kəndirbazların oyunlarını izləmişlər. Ətrafda yumurta döyüşən, xoruz döyüşdürən kim. Bir sözlə, Novruza xas bütün adət-ənənələr, onun təamları - yuxa, kətə, qovurğa, aş, müxtəlif şirniyyatlar meydanda açılmış süfrələrə düzülmüşdür.

Müdrik el ağsaqqalı Dədə Qorqud və Bahar qızı iştirakçıları salamlayaraq onlara xeyir-dua vermiş, xoş arzularını bildirmişlər. Milli paltar geymiş qızların rəqsləri, Keçəl və Kosanın çıxışları da maraqla izlənmişdir. Sonra meydanın mərkəzində rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov Dədə Qorqudla birlikdə qurulan Novruz tonqalını alovlandırmışdır.

Çıxış edən M.Məmmədov tərtərliləri bayram münasibətilə təbrik edərək onlara cansağlığı, ruzi-bərəkət və firavanlıq arzulamışdır. Bildirmişdir ki, Novruz bayramı əsrlərin sınağından çıxaraq bugünədək gəlib çatmış milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bayramımızdır. Xalqımız min illərdir ki, Novruzun gəlişini bayram edir: "Artıq 5 ildir 44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan möhtəşəm Zəfər Azərbaycana əbədi bir bahar gətirib. Bu baharı bizə gətirən şəhidlərimizə Ulu Tanrıdan rəhmət diləyir, şəhid analarının qarşısında baş əyir, qazilərimizə cansağlığı arzulayırıq".

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2021-ci ildə Cıdır düzündən, 2022-ci ildə Suqovuşan qəsəbəsindən, 2023-cü ildə Talış kəndindən, 2024-cü ildə Xankəndidən, bu il isə Ağdərənin Həsənriz kəndindən Azərbaycan xalqını təbrik etdiyini, bayram tonqalını yandırdığını deyən M.Məmmədov vurğulamışdır ki, bu gün doğma Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir, gülüstana çevrilir, kəndlər salınır, şəhərlər bərpa edilir, uzun illər doğma ocaqlarından didərgin düşmüş məcburi köçkünlər geriyə dönürlər".

Müğənnilərin ifaları və Qarabağ Regional Mədəniyyət İdarəsi Tərtər nümayəndəliyi tərəfindən hazırlanan şən və rəngarəng konsert proqramı tədbir iştirakçıları tərəfindən maraqla izlənmişdir.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup tərtərliyə rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının fəxri fərmanları təqdim olunmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 20 mart (№ 61).- S.9.